**ATƏT/DTİHO**
**Azərbaycan Respublikası**
**2005-ci il Milli Məclisə Seçkilərdə**
**Seçkiləri Müşahidə Missiyası**
**6/10 V.Mustafazadə küç. 3-cü mərtəbə**
**İçəri Şəhər, Bakı AZ 1000**
**Tel: +994 12 4975708**
**Fax: +994 12 4975715**
**e-mail: office@odihr.az**

# İKİNCİ ARALIQ HESABATI

24 SENTYABR – 7 OKTYABR 2005


**Xülasə**

- Mərkəzi Seçki Komissiyası (MSK) və Dairə Seçki Komissiyaları (DSK) öz cədvəllərinə uyğun olaraq texniki hazırlıq işlərini davam etdirirlər. SMM seçici siyahılarının dəqiqliyi ilə bağlı məsələləri yaxından müşahidə etməkdədir. Bir çox seçki komissiyaları şikayətlərlə bağlı qərarların çıxarılmasında operativ işləməmiş və bəziləri qanuna uyğun qərar verməmişdir.

- Kampaniyanın dinamikası Bakıda və ölkənin qalan yerlərində müxtəlif növ təşviqat vasitələrindən istifadə edən namizədlərin fəaliyyəti nəticəsində yüksəlir. Kampaniya xeyli dərəcədə qütbləşməkdədir.

- Bütün ölkə ərazisində seçki ilə bağlı keçirilən bir sıra küçə yürüşlərinə qeyri-mütənasib məhdudiyyətlərin qoyulması və polis və yerli icra orqanları tərəfindən müxalifətdən olan namizədlərin icazəli kampaniya fəaliyyətinə əngəllər törədilməsi azad toplaşma hüququnu və Prezidentin 11 may tarixli sərəncamını pozur.

- İcra hakimiyyəti orqanlarının müəyyən namizədlərin xeyrinə seçki kampaniyasına müdaxiləsi barədə çoxlu sayda dəlillər vardır. Bəzi hallarda seçki prosesinə bu müdaxilə Seçki məcəlləsinin müddəalarını və Prezidentin 11 may tarixli Sərəncamını pozur.

- Televiziyada pulsuz efir vaxtı qanunda nəzərdə tutulduğu kimi paylanaraq dörd əsas siyasi partiya və bloklara imkan verir ki, öz fikirlərini xalqa çatdırsınlar. Lakin pulsuz efir vaxtından əlavə olaraq monitor edilmiş bütün elektron KİV-i hazırkı Prezidentin fəaliyyətinin işıqlandırılmasına müsbət xarakterli olmaqla geniş şəkildə yer ayırır və beləliklə iqtidar yönlü namizədlərin xeyrinə fəaliyyət göstərir.

- Sentyabrın 30-da Milli Teleradio Şurası ANS ÇM radiosunun Şəki filialının bağlanması haqqında qərar vermişdir. Bu radiostansiya gündəlik olaraq yerli xəbərlərdən və namizədlər arası debatlardan ibarət 30 dəqiqəlik proqram yayımlayırmış.

# I. Seçkinin idarə edilməsi

Mərkəzi Seçki Komissiyası (MSK) və Dairə Seçki Komissiyaları öz cədvəllərinə uyğun olaraq texniki hazırlıq işlərini davam etdirirlər. MSK-nın müxalifəti təmsil edən bəzi nümayəndələrinin verdiyi məlumata görə MSK-nın fəaliyyətində kollegial iş prinsipi yoxdur və müxalifət tərəfindən daxil olmuş məsələ və şikayətlərə lazımi qaydada baxılmır. MSK-nın iclasları müşahidəçilər və KİV nümayəndələri üçün açıqdır; lakin müşahidələr göstərir ki, MSK protokolları iclaslar keçirildikdən yalnız bir neçə həftə keçdikdən sonra hazır edir. 22 avqustdan 2 sentyabra qədər keçirilən iclasların protokolları sentyabr ayının 22-də qəbul edilmişdir. İclasların protokollarının hazırlanmasında oxşar gecikmə halları aşağı səviyyəli seçki komissiyalarında da müşahidə edilmişdir.

Hökumət rəsmilərinin və Baş prokurorun seçkilərin ciddi şəkildə qanun çərçivəsində keçiriləcəyinə ATƏT/DTİHO SMM-i əmin etməkdə davam etməsinə baxmayaraq, SMM-in müşahidələri göstərir ki, DSK-lar hökumətdən olan namizədlər və icra orqanları tərəfindən edilən təzyiq və ya təsirə müqavimət göstərə bilmir. Məsələn, 30 sentyabr tarixində 86 saylı DSK-nın sədri istefa verdiyini elan etdi və bunu icra orqanları tərəfindən güclü təzyiqə məruz qalması ilə izah etdi. Bunun ardınca isə 86 saylı DSK-nın digər üzvləri yeni sədrə səs vermək üçün onlara hədə-qorxu gəlinməsi və ya rüşvət təklif edilməsi barədə SMM-ə məlumat verdilər.

Şikayətlər və müraciətlər

ATƏT/DTİHO-nin Seçkiləri müşahidə missiyası bəzi seçki komissiyalarının Seçki Məcəlləsinin müddəalarını ədalətli və qərəzsiz şəkildə həyata keçirməməsi barədə narahatdır və bu narahatlıq xüsusilə şikayət və müraciət halları ilə bağlıdır.

Şikayətlərlə bağlı MSK-nın çıxardığı qərarların əksəriyyəti aydın deyildir və tez-tez qərarların səbəbi izah olunmur. Bu qərarlar Seçki Məcəlləsinin 25-ci maddəsinə uyğun olaraq yalnız DSK-nın qərarını ləğv etmək səlahiyyətini bildirməklə kifayətlənir. MSK şikayətin xarakterindən asılı olaraq qərar qəbul etmək əvəzinə onları digər orqanlara istiqamətləndirməyə meyl edir. Çox az hallarda MSK və DSK seçki kampaniyasının pozulması və ya yerli icra orqanlarının müdaxiləsi ilə bağlı şikayətçilərin xeyrinə qərar qəbul etmişdir.[1] Bu şikayətlər ümumilikdə hakimiyyətdə olan Yeni Azərbaycan Partiyasına (YAP) mənsub olmayan namizədlər tərəfindən edilmişdir. Bəzi hallarda şikayətçilər video çəkilişi, digər seçki komissiyalarının rəsmiləri tərəfindən verilmiş bəyanatlar və digər namizədlər barəsində etibarlı dəlillər gətirirlər. SMM-in müşahidə etdiyi bir halda namizəd öz iş otağından və xidməti nəqliyyat vasitələrindən kampaniya məqsədləri üçün istifadə edərək inzibati resurslardan sui-istifadə etmişdir. Lakin 62 saylı dairə seçki komissiyası qanun pozuntusunu sübut edən heç bir fakt tapmamışdı. Bir sıra hallarda isə DSK-nın qərarı qanunda nəzərdə tutulduğu kimi 3 gün ərzində verilmir.

[1] Sentyabr ayında MSK-nın yeddi iclası olmuşdur və 44 qərar qəbul edilmişdir və bunlardan 11-i şikayətlərlə bağlı olmuşdur. Bu şikayətlərdən yeddisi əsassız hesab edilərək rədd edilmiş və dördü prokurorluğa və digər orqanlara göndərilmişdir. MSK-nın şikayətlərlə bağlı qəbul etdiyi qərarlardan bəziləri rəsmi hesab edilmədiyindən nəşr edilməmişdir.

Seçici siyahıları

Oktyabrın 1-dən etibarən seçici siyahılarına dəyişikliyin seçki komissiyasının qərarı ilə edilməsi başa çatdı. İndi seçici siyahılarına dəyişikliklər məhkəmənin qərarı ilə edilə bilər. Görünür, seçicilər özləri haqqında siyahıya daxil edilmiş informasiyanı lazımi səviyyədə yoxlamaq imkanından istifadə etməmişlər. Seçki vəsiqələrinin paylanması zamanı bir çox yanlışlıq seçki məntəqələri tərəfindən müəyyən edilərək düzəldilmişdir. Seçici siyahılarının mərkəzdən təsdiq olunması prosesi davam etməkdədir. Lakin seçici vəsiqələrinin paylanması zamanı müşahidə edilən problemləri nəzərə alaraq SMM bu siyahıların dəqiqliyi barədə narahatdır (aşağıya baxın).

Qanuna görə xaricdə müvəqqəti yaşayan və Azərbaycanın ordakı diplomatik nümayəndəliyində qeydiyyatdan keçməmiş seçicinin adı Azərbaycandakı seçki məntəqəsinin siyahısında qalır. Lakin SMM-in müşahidələri göstərir ki, bəzi məntəqə seçki komissiyaları heç bir müvafiq sübut olmadan bu vətəndaşların adlarını siyahıdan çıxarmışlar.[2]

Seçici vəsiqələri

Məntəqə seçki komissiyaları cidd-cəhdlə seçici vəsiqələrinin seçicilərə paylanmasına çalışmışlar. Lakin seçici vəsiqələrinin paylanması sahəsində vahid prosedurun olmaması narahatlıq doğurur. Seçici vəsiqələrinə ciddi münasibət bəslənilmir. Adətən bu vəsiqələr paylanarkən ya qonşuya, ya ailənin digər üzvünə verilir yaxud da sadəcə özəl yaşayış yerlərində poçt qutusuna atılır. SMM bir çox dairələrdə dəfələrlə müşahidə etmişdir ki, seçici vəsiqələri aid olduğu digər şəxs tərəfindən qəbul edilərək qol çəkilmişdir. Dünyasını dəyişmiş adamların adına seçici vəsəqəsinin hazırlanması halları da baş vermişdir və bu da ona dəlalət edir ki, şəxsiyyət vəsiqələrinin yoxlanılması tələbi yerinə yetirilməmişdir.

Bundan başqa seçici vəsiqələri üzərində saxtakarlığın qarşısını almağa xidmət edən su nişanəsi və ya xüsusi seriya nömrəsi kimi nişanələr yoxdur. Təhlükəsizlik nişanələrinin olmaması və üstəlik vəsiqələrin paylanması sahəsində vahid prosedurun olmaması qanunun seçici vəsiqəsinə verdiyi əhəmiyyətlə uyğun gəlmir. Seçki Məcəlləsinin 104.6 maddəsinə əsasən seçici vəsiqəsi seçki günündə səs verməyə icazə verən hüquqi sənəddir, lakin MSK-nın sədri bildirmişdir ki, seçici vəsiqəsi almayan şəxslərin səsvermə hüququnu pozmamaq üçün seçici vəsiqəsi olmasa belə onların səs verməsinə icazə verilə bilər. SMM-in ilkin qiymətləndirməsi budur ki, seçici vəsiqələri çoxdəfəli səsvermənin qarşısını ala biləcək mexanizm kimi çıxış etmir.

## II. Kampaniya mühiti

Kampaniya mühiti 1993-cü ildən üstünlük əldə edən Yeni Azərbaycan Partiyasının (YAP) dominant mövqeyi ilə xarakterizə edilir. Prezident İlham Əliyevin rəhbərlik etdiyi bu partiya əksər hökumət və yerli inzibati işlərdə dominantlıq edir. MSK, 125 DSK və bütün məntəqə seçki komissiyalarının sədrlərinin hamısı namizədliyi bu partiya tərəfindən irəli sürülən şəxslərdir. Bütün seçki komissiyalarında çoxluq hökumətə məxsusdur. Partiyanın bu cür üstün mövqeyə malik olması kənar qüvvələrə kampaniya keçirməkdə maneələr törədir.

2 Yaşayış yerinin və müvəqqəti yaşayış yerinin qeydiyyatı barədə Qanunun 9-cu maddəsi. Qanun qeydiyyatdan çıxmağa əsas verən mümkün səbəbləri sadalayır və başqa səbəblərlə yanaşı bildirir ki, şəxs digər yerdə Azərbaycanın xaricdəki konsulluq şöbəsi vasitəsi ilə qeydiyyata düşdüyü halda və ya vəfat etdikdə əvvəlki yerindən qeydiyyatdan çıxarıla bilər.

Kampaniyanın dinamikası Bakıda və ölkənin qalan yerlərində müxtəlif növ təşviqat vasitələrindən istifadə edən namizədlərin fəaliyyəti nəticəsində yüksəlir. Kampaniya xeyli dərəcədə qütbləşməkdədir. Namizədlərin əksəriyyəti seçicilərlə kiçik miqyaslı görüşlər keçirir və ətraf ərazilərin sakinləri ilə qapı-qapı gəzib görüşür. Ötən kampaniyalara nisbətdə bu kampaniya zamanı bütün ölkə ərazisində çox saylı plakatları görmək olar. Ancaq çox vaxt iri dükanların pəncərələrinə yalnız hakim partiya olan YAP-ı təmsil edən namizədlərin plakatları vurulmuşdur. Bir sıra halları istisna etməklə çox az qadın kampaniya fəaliyyətinə qoşulur.

Kampaniya daha da qütbləşməkdə davam edir. Prezidentin 11 may tarixli sərəncamının yerli icra orqanlarına "toplaşma azadlığının təmin olunması üçün lazımi tədbirlər görməsi" barədə göstərişlər verməsinə baxmayaraq, Bakının mərkəz hissəsində və rayon şəhərlərinin mərkəz yerlərində müxalifətin aksiyaları təşkil etmə cəhdlərinə qarşı qoyulan kəskin məhdudiyyətlər davam etməkdədir. Aksiyalara tətbiq edilən məhdudiyyətlər və qadağalar "xüsusi zərurət olduqda" və ya "son tədbir" kimi tətbiq edilməli və qanunla müəyyən edilməlidir[3]. Bu məhdudiyyətlərin Konstitusiya və Prezident Sərəncamının müəyyən etdiyi fundamental prinsiplərlə uyğun gəlməməsi SMM-i ciddi narahat edir.

MSK-nın sədri açıq surətdə xəbərdarlıq etmişdir ki, qeyri-qanuni nümayişdə iştirak etmək hər hansı namizəd üçün pis nəticə verə bilər. Daxili İşlər Naziri seçki gününün səhəri müxalifətin silaha əl atması barədə gümanın çox olması ilə bağlı KİV-ə kəskin fikirlər söyləmişdir.

İki dəfə, sentyabr ayının 25-də və oktyabr ayının 1-də müxalifətdən olan Azadlıq bloku Bakının mərkəzi hissəsində aksiya keçirməyə cəhd etdi. Hökumət aksiya üçün yeni yer ayrılması barədə danışıqlara girməyə razılıq verdiyindən aksiyanın təşkilatçıları birinci aksiyanı dayandırdılar. Müxalifət tərəf hökumətin onlara təklif etdiyi şəhərin hüdudlarında və ya mərkəzdən uzaqda yerləşən yerlərlə razı olmadığı üçün bu danışıqlar baş tutmadı. Oktyabr ayının 1-də isə Bakının mərkəzində müxalifət tərəfindən təşkil olunmuş daha bir icazəsiz aksiya hökumət tərəfindən kifayət qədər iri polis müdaxiləsi vasitəsilə pozuldu. 4 namizəd daxil olmaqla 100-dən çox adam saxlanıldı. Saxlanılanların çoxu bir neçə saat sonra buraxıldı, bir neçəsi isə ictimai asayişi pozmaqda təqsirləndirilərək barəsində qısa müddətli həbs qərarı verildi.

Bütün regionlardan dövlət və bələdiyyə işçilərinə, xüsusilə müəllimlərə təzyiqlərin olması barəsində etibarlı dəlillər var. Bu işçilər yerli icra rəsmilərinin üstünlük verdiyi namizədlərin görüş və mitinqlərində iştirak etməyə və müxalifətin təşkil etdiyi tədbirlərdən uzaqda durması üçün təzyiqlər edilir. Bir qayda olaraq regionlarda müxalifətin təşkil etdiyi icazəli aksiyalar çoxlu sayda polisin ciddi nəzarəti altında keçir.

Bundan əlavə ATƏT/DTİHO SMM-in müşahidəçiləri müxalifətdən olan namizədlərin seçki kampaniyasına tez-tez polis və yerli icra orqanları tərəfindən maneələr törədilməsi barədə məlumat verirlər. Belə ki, SMM müşahidə etmişdir ki, oktyabr ayının 5-də Ağstafa (106/108 saylı DSK-ları) və Tovuzda (104/105 saylı DSK-ları) əvvəlcədən icazə alınmış aksiya keçiriləcəyi gün aksiya baş verməmişdən əvvəl yerli icra orqanları aksiya keçiriləcək yerə aparan əsas yollarda hərəkəti müxtəlif bəhanələrlə dayandırır və iştirakçıları ayaqla getməyə və ya arxa

[3] Toplaşma Azadlığı haqqında qanunun 7 və 8-ci maddələri.

yollardan istifadə etməyə məcbur edirlər.[4] Başqa misal, oktyabr ayının 6-da Gədəbəydə (DSK 103/104) Azadlıq blokunun liderləri tərəfindən keçiriləcək icazəli aksiyada iştirak etmək üçün təxminən 70-ə yaxın adam maşın və avtobusla gedərkən, aksiya keçiriləcək yerin 10 km-də polis tərəfindən saxlanılmış və məcbur edilmişlər ki, ya ayaqla getsinlər, ya da geri qayıtsınlar. Nəticədə aksiya 1 saat gecikmişdir.[5]

Namizədlərin seçiciləri hədiyyə və xidmətlərlə təchiz etməsi kimi qeyri-qanuni kampaniya vasitələrindən istifadə etməsi barədə çoxlu sayda məlumatlar daxil olmuşdur. Bu cür sui-istifadə halları görünür ümum tərəfindən qanuni kampaniya fəaliyyəti kimi qəbul olunur. Oktyabr ayının 3-də Lider televiziyasında YAP-ın İcraçı katibi (həm də namizəd) Əli Əhmədovun qocalar evində 20 televizor paylanması yayımlanmışdır.[6]

ATƏT/ODİHR 1-ci aralıq hesabatında haqqında məlumat verdiyi fərdi işləri müşahidə etməkdə davam edir. Konstitusiya məhkəməsinə keçmiş spiker, hazırda seçkilərə namizədliyini irəli sürmüş cənab Rəsul Quliyevin vəsatətinə baxılması barədə müraciət olunmuşdur. Apelyasiya Məhkəmənin qərarına əsasən cənab Rəsul Quliyevin cinayət məsuliyyətinə cəlb olunması haqqında həbs qərarı 2000-ci ildə verildiyindən toxunulmazlıq hüququ şamil edilmir. Daxili İşlər Naziri dəfələrlə təkrar etmişdir ki, Rəsul Quliyev Azərbaycana gəlsə dərhal həbs ediləcək. İctimaiyyət qarşısında bu cür bəyanatlar cənab Rəsul Quliyevin ədalətli məhkəmə qarşısında cavab vermək hüququna xələl gətirə bilər.

Sentyabr ayının 28-də keçirilən mətbuat konfransında ölkədə devriliş etmək cəhdinə görə ittiham edilən Yeni Fikir təşkilatının iki üzvünü təmsil edən vəkillər iddia etmişlər ki, bu ittihamların arxasında siyasi məqsədlər durur. Bu təşkilata mənsub olan və haqqında heç bir ittiham edilməyən üçüncü üzv hələ ki, xəstəxanada polisin mühafizəsi altında yatır. Hər iki vəkil şikayətlənmişdir ki, prokuror və məhkəmə həmin şəxslər barəsində həbsin təsdiqi ilə nəticələnən qapalı məhkəmə prosesi zamanı cinayət prosessual məcəlləsini ciddi qaydada pozmuşlar.

## III. Kütləvi informasiya vasitələri

SMM tərəfindən monitor edilən və dövlət tərəfindən maliyyələşdirilən televiziya kanalları hələ ki, aparıcı dörd siyasi partiya və blokların namizədləri arasında müntəzəm debatlara ayrılan vaxtlar da daxil olmaqda pulsuz efir vaxtının paylanması ilə bağlı öhdəliklərinə əməl edirlər.[7] Bu debatlar fikirlərin mübadiləsi formasında təşkil edilərək seçicilərə namizədlər haqqında təsəvvür formalaşdırmağa şərait yaradır.

Pulsuz efir vaxtından əlavə olaraq *AzTV* ölkə prezidentinin və hökumətin fəaliyyətinin işıqlandılırmasına müsbət xarakter daşımaqla geniş yer ayırır və beləliklə hökumət meylli

---

4 Ağstafada aksiya başlanmazdan təqribən bir saat əvvəl yol bağlanmış və təmir işləri başlanmışdır. Aksiya başa çatdıqdan az sonra yol açılmış və təmir işi dayandırılmışdır. Tovuzda aksiyanın keçiriləcəyi gün səhər tezdən şəhərin mərkəzinə gedən iki əsas yol bağlanmışdır. Yollardan birinə çınqıl təpələnmiş, digəri isə polisin verdiyi bir-birindən fərqli səbəblər üzündən bağlanmışdır.

5 SMM bu hadisəni müşahidə etmişdir və üstəlik onlara bir müddət polisin müəyyən etdiyi xətdən keçməyə imkan verilməmişdir.

6 Seçki məcəlləsinin 88.4.1 maddəsi bu fəaliyyəti qadağan edir.

7 SMM dövlət tərəfindən maliyyələşən iki dövlət kanalını monitor etmişdir – AzTV və İctimai televiziya (İTV).

namizədlərin təbliğinə yardım etmiş olur. Seçki kampaniyasının ilk dörd həftəsində SMM-in apardığı monitorinqinin nəticələrinə görə *AzTV*-nin axşam saat 6-12 arasındakı zamanı əhatə edən əsas informasiya saatlarında siyasi vəziyyət və seçki ilə bağlı yayımlanan xəbərlərin ümumilikdə 99 faizi Prezident (70 faiz), hökumət (18 faiz) və Prezidentin rəhbərlik etdiyi YAP partiyasına (11 faiz) həsr edilmiş və müstəsna müsbət və ya neytral xarakter daşımışdır. Nəticədə *AzTV* seçki və siyasi məsələlərlə bağlı fikir müxtəlifliyini təmin edə bilməmişdir.

*AzTV* ilə müqayisədə yeni yaradılmış İctimai televiziya tamaşaçılarına müxtəlif proqramlar vasitəsilə daha ətraflı siyasi məlumatlar təqdim etmişdir. Lakin İctimai televiziya da bu günə qədər əsas informasiya saatlarında yayımlanan xəbərlərin böyük qismini hazırkı Prezident (29 faiz), hökumət (42 faiz) və YAP partiyasından (5 faiz) bəhs edən xəbərlərə ayırmışdır və bu verilişlər də ya həddsiz müsbət yaxud da neytral xarakter daşımışdır. Bunun əksinə olaraq, həmin müddətin cəmi 21 faizi müxalifəti təmsil edən Azadlıq blokunun payına düşmüşdür və bu yayımlanmanın da 60 faizi mənfi və 5 faizi müsbət xarakterdə olmuşdur.

Bütün ölkəyə yayımlanan üç özəl kanal – *Lider televiziyası, Space* və *ATV*-də öz işıqlandırmasında oxşar siyasi favoritizmdən istifadə etmişdir. SMM-in monitorinqinin nəticələrinə görə *Lider* televiziyası əsas informasiya saatlarında yayımlanan siyasi və seçkilərlə bağlı xəbərlərin 87 faizini Prezident (48 faiz), hökumət (22 faiz) və YAP partiyasının (7 faiz) fəaliyyətinin həddsiz müsbət tonda işıqlandırılmasına həsr etmişdir. Bunu əksinə olaraq, eyni zaman kəsiyində müxalifəti təmsil edən Azadlıq blokunun payında düşən vaxt 12 faiz olmuşdur və açıqcasına mənfi xarakter daşımışdır.

Yuxarıda haqqında bəhs edilən beş televiziya kanalından fərqli olaraq, ümumilikdə *ANS*-in əsas informasiya saatlarında seçki kampaniyasını işıqlandırması daha tarazlı olmuş və müxtəlif tərəflərin mövqelərini əks etdirmişdir. Kampaniya başlayandan ANS əsas informasiya saatlarında yayımlanan siyasi və seçkilərə bağlı xəbərlərin 81 faizini ya müsbət yaxud da neytral xarakter daşımaqla Prezidentə (21 faiz), hökumətə (49 faiz) və YAP partiyasına (11) ayırmışdır. Bununla müqayisədə müxalifətdən olan Azadlıq seçki blokunun bu zaman ərzində işıqlandırılması əsasən neytral və ya müsbət xarakterli olmaqla 14 faiz təşkil etmişdir. ANS indiyədək monitor edilən televiziya kanalları arasında müxalifətə daha çox yer ayıran və müxtəlif mövqeləri işıqlandıran televiziya kanalıdır. Lakin bu kanalın tamaşaçı dairəsi digər üç əsas kanaldan – *AzTV, İctimai televiziya* və *Lider televiziyasından* xeyli azdır.

Sentyabrın 30-da Milli Teleradio Şurası[8] *ANS*-ə Şəkidə açdığı yerli radiosunun bağlanması haqqında göstəriş vermişdir. Teleradio Şurasının iddiası budur ki, Şəkidə gündəlik hazırlanan 30 dəqiqəlik proqramın yayımlanması üçün ayrıca lisenziya almaq lazımdır.[9] *ANS* isə təkidlə bildirir ki, o ölkənin hər yerində olduğu kimi Şəkidə də eyni tezlikdən yayımlanır və Teleradio Şurasının yeni lisenziya və yeni hüquqi şəxsin yaradılması barədə tələbləri qanuna uyğun deyildir. 4 oktyabr tarixində Rabitə və İnformasiya Texnologiyaları Naziri bildirmişdir ki, *ANS*-in proqramları qanunauyğun şəkildə yayımlanmışdır. Məhkəmə qərarı olmadan hər hansı kütləvi informasiya vasitəsinin seçki prosesləri zamanı məcburi bağlanması narahatlıq doğuran haldır.

[8] Azərbaycan Milli Teleradio Şurası yayımlanan KİV-ə nəzarət edən tənzimləyici orqandır. 2002-ci ildən bu yana bu şura heç bir yeni lisenziya hazırlamamışdır.

[9] Proqram yerli xəbərlər və namizədlər arasında debatlar təşkil edirdi.

Bundan əlavə Teleradio Şurası *ANS*-i xəbərdar etmişdir ki, onun ümummilli lisenziyası ləğv edilə bilər.

Dövri mətbuatda nəşr edilən informasiya daha çeşidli xarakter daşıyır, lakin qütbləşmiş mövqelərdən çıxış edərək ya hökumət rəsmilərini dəstəkləməklə yaxud da ciddi tənqid etməklə qərəzli münasibəti əks etdirir. SMM tərəfindən monitor edilən və dövlət tərəfindən maliyyələşdirilən qəzetlər, namizədlərə pulsuz və ödənişli çap səhifəsinin ayrılması ilə bağlı öhdəliklərinə əməl etmişlər. Lakin onlar hazırkı Prezidentin və hökumətin fəaliyyətinin işıqlandırılmasına geniş yer ayıraraq, müxalifəti təmsil edən qüvvələrin fəaliyyət və mövqeyinin işıqlandırılmasına kifayət qədər önəm verməmişlər.

Televiziya kanallarından fərqli olaraq, müxalifətin mənafeyindən çıxış edən qəzetlər müxalifət üçün eyni platforma rolunu oynayır. Lakin bu qəzetlərin dövriyyəsi aşağıdır.

## IV. ATƏT/DTİHO-nin Seçkləri müşahidə missiyasının fəaliyyəti

SMM namizədlər, vətəndaş cəmiyyəti, seçki komissiyaları, dövlət rəsmiləri, KİV nümayəndələri və ölkənin müxtəlif yerlərindən olan digər şəxs və qruplarla görüşlərini fəal şəkildə davam etdirib. Missiya ATƏT-in üzvü olan ölkələrin diplomatik nümayəndəlikləri üçün keçirilməsi iki həftədən bir nəzərdə tutulan ikinci brifinqini təşkil etmişdir. Missiyanın başçısı müntəzəm olaraq Xarici İşlər Nazirliyi, MSK və Prezidentin İcra Aparatı ilə görüşlər keçirmiş, seçkilərlə bağlı bir sıra fikir və narahatlıqlarını bölüşmüşdür. Əhəmiyyətli sayda iştirak etməsi gözlənilən parlament şuralarının üzvləri də daxil olmaqla qısa müddətli müşahidəçilərin gəlməsi və yerləşdirilməsi istiqamətində hazırlıq işləri başlanmışdır.